# Tamilla AXUNDOVA



Tanınmış şair Tamilla xanım Axundovanı yubileyi münasibətilə təbrik edirik.

Tamilla Axundova 1944-cü ildə Bakıda dünyaya gəlib. 1961-ci ildə orta məktəbi bitirib Azərbaycan Tibb Universitetinə qəbul olunub. Əmək fəaliyyətinə 1967-ci ildə həkim kimi başlayıb. Azərbaycan Həkimləri Təkmilləşdirmə İnstitutunda aspirant, assistent olub, 2 saylı Psixatriya Klinikasında şöbə müdiri, baş həkim vəzifələrində işləyib.

Ədəbi yaradıcılığa ötən əsrin 90-cı illərində başlayıb. Şeirləri mətbuatda işıq üzü görüb. 1998-ci ildə "Nayedine" ("Özümlə baş-başa) - ilk şeirlər toplusu oxuculara təqim olunub. Həzin, səmimi lirik şeirlər müəllifi kimi tanınsa da, Tamilla xanım qələmini nəsrdə də sınayıb. Bəlkə ixtisasından irəli gəlir, bəlkə də fitrətən insan psixologiyasına dərindən bələd olduğu üçündür ki, həm şeirlərində, həm də nəsr əsərlərində obrazlara, hadisələrə yanaşma tərzi oxucuları təsir dairəsinə çəkə bilir, təəccübləndirir, düşündürür. Tamilla Axundovanın yaradıcılığı ölkəmizin hüdudlarından kənarda da dəyərləndirilir. O. Rusiya Yazıçılar Birliyinin üzvüdür. RYB Moskva şöbəsinin təsis etdiyi ədəbi "Qarnet daşlı bilərzik" mükafatına, A.Kuprin medalına layiq görülüb.

Hörmətli Tamilla xanımı yubileyi münasibətilə təbrik edir, ona cansağlığı, uzun ömür, yaradıcılıq uğurları arzulayırıq.

*Azərbaycan Yazıçılar Birliyi*